# BƏNÖVŞƏLƏRDƏN AYRI

Bənövşələrdən ayrı
Dağlar dözə bilir, dağlara nə var,
Mən ki, dözə bilmirəm.
Bir də nə vaxt çiçəkləyər gilənar?
Bağlar dözə bilir, bağlara nə var,
Mən ki, dözə bilmirəm.
Niyə belə geç açıldı lalələr?
Çöllər dözə bilir, çöllərə nə var,
Mən ki, dözə bilmirəm.
Qu quşları unutdumu gölləri?
Göllər dözə bilir, göllərə nə var.
Mən ki, dözə bilmirəm
Şəhidlər xiyabanında sönməyən
Bu usyankar sükuta
İllər dözə bilir. illərə nə var.
Mən kn, dözə bilmirəm

Əjdər Fərzəli